**2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlqar Əlizadənin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 17 yanvar 2020-ci il tarixli 25 saylı müraciəti üzrə**

# RƏYİ

Bakı şəhəri 19 yanvar 2020-ci il

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 110 saylı Zaqatala seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Soltanov Saleh Calal oğlu 14 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək 110 saylı Zaqatala seçki dairəsi dairə seçki komissiyasının hərəkətsizliyini mübahisələndirərək pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü İlqar Əlizadə həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələbinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizəd S.C.Soltanov müraciətində bildirmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 2020-ci il yanvarın 6-da namizədliyini öz təşəbbüsü ilə irəli sürmüş, lakin dairə seçki komissiyası tərəfindən namizədliyin təsdiq olunub-olunmaması barədə ona heç bir məlumat verilməmişdir.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, namizəd araşdırmada və iclasda iştirak etməkdən imtina etmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, S.C.Soltanovun namizədliyi 6 yanvar 2020-ci ildə öz təşəbbüsü ilə irəli sürülmüş, dairə seçki komissiyasının 10 yanvar 2020-ci il tarixli 30/71 saylı Qərarı ilə onun namizədliyinin irəli sürülməsi təsdiq edilmiş, bu barədə namizədə məlumat verilmiş, qərar və imza vərəqələri ona təqdim edilsə də, namizəd onları

qəbul etməkdən imtina etmişdir. Bundan sonra sözü gedən qərarın surəti poçt vasitəsilə namizədin yaşadığı unvana çatdırılmışdır.

Yuxarıda göstərilən məlumatlar dairə seçki komissiyası üzvlərinin 10 yanvar 2020-ci il tarixli aktı, dairə seçki komissiyası sədrinin Mərkəzi Seçki Komissiyasına ünvanlanmış 18 yanvar 2020-ci il tarixli məlumatı və "Azərpoçt" MMC-nin Zaqatala Poçt Filialının 10/27 saylı 18 yanvar 2020-ci il tarixli arayışı və ünvana çatdırılma faktını göstərən xəbərnaməli məktub ilə təsdiq edilmişdir.

Göstərilənlərə əsasən dairə seçki komissiyasının hərəkətsizliyi öz təsdiqini tapmadığından namizəd S.C.Soltanovun müraciətinin təmin olunması üçün hüquqi əsaslar müəyyən edilməmiş, bu səbəbdən müraciət əsassız hesab edilərək təmin olunmamalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 53-cü, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m**:

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 110 saylı Zaqatala seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Saleh Calal oğlu Soltanovun 14 yanvar 2020-ci il tarixli 25 saylı müraciəti əsassız olduğundan təmin olunmamalıdır.

2. Rəy qəbul ediıdiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü İlqar Əlizadə